# *Prezident İlham Əliyev:*
# Azad edilmiş torpaqlarda tikinti-quruculuq işlərinin vüsəti böyük iqtisadi canlanma yaradacaq



***Vətən müharibəsində əldə edilən parlaq qələbəmizdən sonra erməni vandallarının xarabazara çevirdikləri əzəli-əbədi yurdlarımızın bərpası, inkişaf axarına qovuşması, sosial-iqtisadi dirçəlişi bu gün dövlətimizin qarşısında duran ən mühüm vəzifədir. Ölkə rəhbəri hər zaman bütün məsələlərdə olduğu kimi, bu istiqamətdə də aydın planlara, strateji hədəflərə malikdir.***

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev iyunun 26-da Silahlı Qüvvələr Günü münasibətilə "Gülüstan" sarayında Azərbaycan Ordusunun rəhbər və şəxsi heyətinin bir qrupu ilə görüşündə söylədiyi nitqində deyib: "Biz indi böyük quruculuq işlərinə start vermişik. Baxın, müharibədən cəmi 7 ay keçib, nə qədər böyük işlər görmüşük. Əgər bizdə bu hazırlıq olmasaydı, biz bunu edə bilməzdik. İndi nə qədər vəsaitin olursa-olsun, əgər sənin texniki imkanın yoxdursa, kadr potensialın yoxdursa, infrastruktur layihələri vaxtında icra edilməyibsə, bunların heç yüzdəbirini edə bilməzsən. Amma bu gün misli görünməmiş bərpa işləri aparılır. Nəyin hesabına? Məhz hazırlıq hesabına. Ona görə biz güclü dövlət yaratmışıq, mən son illərdə dəfələrlə demişdim və bax, həyat mənim sözümü təsdiqlədi ki, bugünkü Azərbaycan bütün tarix boyunca ən qüdrətli Azərbaycandır və çoxəsrlik tarixində heç vaxt Azərbaycan indiki qədər güclü olmamışdır".

Hazırda işğaldan azad olunan ərazilərdə sosial infrastrukturun yenidən qurulması və əhalinin işlə təmin olunması üçün dövlət investisiyası ilə yanaşı, yerli və xarici investisiya da cəlb edilir. Dövlətimizin başçısı Ələt Azad İqtisadi Zonasının təməlqoyma mərasimindən sonra Azərbaycan Televiziyasına müsahibəsində bu barədə danışaraq bildirib ki, Qarabağın bərpasına investisiya qoyulması üçün respublikamızda hər cür əlverişli şərait var. İlk növbədə, ölkəmizdə mövcud olan sabitlik hər bir investor üçün əsas şərtlərdən biridir. Sabitlik olmayan ölkələrə heç kim sərmayə qoymur. Bu, aksiomdur. Bu gün Azərbaycana qoyulan və qoyulacaq sərmayələrin əsas şərtlərindən biri, bəlkə də birincisi ictimai-siyasi sabitlikdir, xalq-iqtidar birliyidir.

Prezident İlham Əliyev həmin müsahibəsində, eyni zamanda, azad edilən torpaqlarda tikinti-quruculuq işlərinin vüsəti ilə ölkədə böyük iqtisadi canlanma yaranacağını diqqətə çatdıraraq deyib: "Birbaşa xarici investisiyalar olmadan ölkəmiz istədiyimiz qədər inkişaf edə bilməz. Ona görə, başqa ölkələrlə hökumətlərarası komissiyaların işi də, ilk növbədə, xaricdən vəsaiti Azərbaycana gətirməkdir. Hesab edirəm ki, məhz bu zona potensial investorlar üçün cəlbedici ola bilər".

Bəli, bu gün Azərbaycanda ictimai-siyasi sabitliklə bərabər, əlverişli investisiya mühiti də mövcuddur. Respublikamızda "yaşıl dəhliz", elektron məhkəmə, elektron satınalma, tikintidə "bir pəncərə", biznesə başlama, elektrik enerjisinə çıxış, kreditlərə əlçatanlıq, müqavilələrin icrası və əmlakın qeydiyyatı sahələrində reallaşdırılan sistemli yeniliklər xarici iş adamlarında Qarabağın bərpasına güclü maraq yaradır.

Hazırda işğaldan azad edilən ərazilərdə layihələrin mərkəzləşdirilmiş qaydada icrası üçün Əlaqələndirmə Qərargahı və onun nəzdində İdarələrarası Mərkəz fəaliyyət göstərir. Bu mərkəz tərəfindən enerji infrastrukturunun bərpası və yenidən qurulması, enerji təminatına dair planlaşdırılan tədbirlər, həmçinin uzun illər ərzində yaranmış ekoloji problemlərin həlli və ekoloji təmiz texnologiyaların tətbiqi məsələləri gerçəkləşdirilir. Mərkəz, eyni zamanda, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "yaşıl enerji" zonasının yaradılması ilə bağlı tədbirlər haqqında" Azərbaycan Prezidentinin 2021-ci il 3 may tarixli sərəncamından irəli gələn vəzifələrin icrası vəziyyətini diqqətdə saxlayır.

Bu gün dövlətimizin başçısının diqqət mərkəzində olan önəmli məsələlərdən biri də işğaldan azad edilən torpaqlarda meliorativ tədbirlərin görülməsi ilə bağlıdır. Xatırladaq ki, bu ərazilərdə böyük su mənbələri mövcuddur. Düşmən Azərbaycanı 30 ilə yaxın müddətdə bu potensialdan istifadə etməyə imkan verməyib, respublikamıza qarşı ekoloji terror həyata keçirib. Təkcə meşələri qırmaqla, qoruqları məhv etməklə Azərbaycan təbiətinə böyük zərbə vurub. Məsələn, 54 min hektar meşə sahəsini cinayətkarcasına dağıdaraq, talayıb. İşğalçı uzun illər ərzində su təminatı istiqamətində də xain mövqe tutub, Sərsəng və Suqovuşan su anbarlarını nəzarətində saxlayıb. Bu infrastrukturlar azad edilərdən sonra artıq Ağdam, Tərtər, Bərdə, Goranboy və digər rayonlarımızın su təminatının yaxşılaşması üçün əlverişli şərait yaranıb. Bunun nəticəsində 2 milyard kubmetrdən artıq su ehtiyatından daha səmərəli istifadə etmək imkanı reallaşıb.

Qarabağın əkin sahələrinin suvarılması ilə bağlı məsələlərə də xüsusi önəm verilir. Bununla əlaqədar Suqovuşan bəndinin mexaniki avadanlığı, suburaxıcı qurğuları təmir edilir. Qurğunun təmir-bərpa işlərinin iki ay müddətində başa çatdırılması nəzərdə tutulur.

Gücü 4,8 meqavat olan "Suqovuşan-1" və gücü 3 meqavat olan "Suqovuşan-2" stansiyalarında isə təmir-bərpa işləri başa çatdırılaraq istifadəyə verilib.

Bu stansiyalar Suqovuşan və Talış kəndlərinin enerji tələbatını ödəyəcək, eyni zamanda, "Azərişıq" ASC-nin 35/10 kilovoltluq yarımstansiyası vasitəsilə elektrik enerjisi şəbəkəsinə qoşulacaq və gələcəkdə ümumi elektrik enerjisi təminatına töhfə verəcək.

Dövlətimizin başçısının tapşırıqlarına uyğun olaraq "Azərenerji" ASC tərəfindən işğaldan azad edilmiş bütün ərazilərdə elektroenergetika infrastrukturunun yaradılmasına başlanılıb və respublika enerjisinə inteqrasiya istiqamətində Qarabağ Enerji Strategiyası hazırlanıb. Bu strategiyada hər bir rayonda 110 kilovoltluq yarımstansiyanın tikintisi və onların yüksək gərginlik xətləri ilə ölkə sisteminə inteqrasiyası nəzərdə tutulub. Qarabağda regional mərkəz kimi Ağdam şəhərinin seçildiyini nəzərə alaraq, artıq "Azərenerji" ASC Ağdam rayonunda 110 kilovoltluq iki yarımstansiyanın tikintisinə başlayıb.

Hazırda bu yarımstansiyaların elektrik təchizat şəbəkəsinə qoşulması üçün "Xındırıstan" yarımstansiyasından 110 kilovoltluq, 40 kilometr uzunluğunda xətt çəkilir. Qarabağ Enerji Strategiyasına əsasən, işğaldan azad olunan bütün rayonlarda bu ilin sonuna kimi yarımstansiyaların fəaliyyət göstərəcəyi gözlənilir.

Yeri gəlmişkən, Füzulidə ötən ay ölkə başçısının iştirakı ilə yarımstansiya açılıb, daha əvvəl Şuşada 110/35/10 kilovoltluq yarımstansiyanın açılışı həyata keçirilib.

Qeyd edək ki, "Azərenerji" ASC tərəfindən kiçik su elektrik stansiyalarının bərpası istiqamətində də işlər davam edir. Dövlətimizin başçısının iştirakı ilə istismara verilən ilk infrastruktur layihəsi kimi Laçın rayonu ərazisində "Güləbird" Su Elektrik Stansiyası bunun bariz ifadəsidir. Eyni zamanda, Cəbrayıl, Zəngilan, Qubadlı və Kəlbəcərdə yeni yarımstansiyaların tikintisi davam edir. Kəlbəcərə Daşkəsəndən yeni 110 kilovoltluq xətt çəkilir.

İşğaldan azad edilən ərazilərimizdə hazırda aparılan digər bərpa-quruculuq işlərinə də diqqət yetirək. Uzunluğu 44,5 kilometr olacaq Bərdə-Ağdam avtomobil yolunun tikintisində hazırda torpaq işləri görülür. Eyni zamanda, həmin yolun 25 və 40-cı kilometrlik hissələrində yerləşən 18,2 metr uzunluğa malik 1 aşırımlı körpünün və 32,2 metrlik yol ötürücünün inşası davam etdirilir.

Füzulidən Şuşaya və Göygölün Toğanalı kəndindən Murovdağ silsiləsini keçməklə Kəlbəcər-İstisu istiqamətində yeni avtomobil yollarının tikintisi həyata keçirilir. Təməli Prezident İlham Əliyev tərəfindən qoyulan Horadiz-Ağbənd dəmir yolu xəttinin gerçəkləşdirilməsi istiqamətində də işlər uğurla reallaşdırılır.

Dövlətimizin başçısının tapşırığına əsasən, uzunluğu 101 kilometr təşkil edən "Zəfər yolu" Qarabağın inkişaf planı nəzərə alınmaqla 2 hərəkət zolaqlı olmaqla ikinci texniki dərəcəyə uyğun inşa edilir. Başlanğıcını Hacıqabul-Mincivan-Zəngəzur dəhlizi magistral avtomobil yolundan götürməklə "Zəfər yolu" Qarabağımızın tacı olan Şuşa şəhərinə qədər uzanır.

"Zəfər Yolu"nun ilk 6 kilometrlik hissəsində layihəyə uyğun olaraq yeni yol yatağının inşası, yolun profilə salınması işləri həyata keçirilib və yeni asfalt-beton örtüyünün alt layı çəkilib. Yolun 34-51-ci kilometrlik hissəsində torpaq işləri, 42-44-cü kilometrlik hissədə isə torpaq və asfalt-beton işləri başa çatdırılıb.

İşğaldan azad edilmiş Füzuli, Xocavənd, Xocalı və Şuşa rayonlarının ərazisindən keçməklə inşa edilən "Zəfər yolu" Füzuli və Şuşa şəhərləri də daxil olmaqla sözügedən rayonların 20-dən artıq yaşayış məntəqəsini əhatə edəcək.

Füzuli Beynəlxalq Hava Limanında inşaat işlərinin gedişi də diqqətdə saxlanılır. Bu beynəlxalq hava limanının tikintisinə yanvar ayında başlanılıb. Üç min metr uzunluğunda, altmış metr enində uçuş-enmə zolağı olacaq limanda təyyarələrin enişinin iki tərəfdən də təmin olunması nəzərdə tutulub. Artıq uçuş-enmə zolağının və perronun tikintisində torpaq işləri yekunlaşıb. Aerovağzal kompleksindəki binanın tikintisində isə betonlama demək olar ki, 80 faiz başa çatıb.

Zəngilanda da aeroportun tikintisi sürətlə aparılır. Laçın rayonunda isə hava limanının salınacağı ərazi artıq müəyyənləşdirilib.

Beləliklə, Azərbaycan Prezidenti İlham Əliyevin vurğuladığı kimi, doğma Qarabağ tezliklə cənnətə çevriləcək. İşğaldan azad edilmiş ərazilərdə görülən işlərin, həyata keçirilən tədbirlərin sürətlə aparılması da bunu deməyə əsas verir.

**Vaqif BAYRAMOV,**
**"Xalq qəzeti"**